Əl işdən soyumaz, ürək arzudan...



# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 34-35 (7496-7497) • 1933-cü ildən nəşr olunur • Cümə axşamı, 26 iyul 2018-ci il. news@qebele-ih.gov.az

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

***20 iyul***

Azərbaycan Prezidenti İlham Əliyevin Fransa Prezidenti Emmanuel Makronun dəvəti ilə bu ölkəyə səfəri iyulun 20-də başa çatıb.

* * *

Parisdə, Yelisey Sarayında Fransa Respublikasının Prezidenti Emmanuel Makronun adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə nahar verilib. Müzakirələr zamanı Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, ekologiya, nəqliyyat, təhlükəsizlik, mədəni və digər sahələrdə uğurla inkişaf etdiyi bildirib.

* * *

Parisdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransa Milli Assambleyasının sədri Fransua de Rüji ilə görüşü olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Parisdə Fransanın SADE şirkətinin prezidenti Patrik Lölo ilə görüşüb.

***19 iyul***

Prezident İlham Əliyev Parisdə "Wilmotte & Associes Architectes" şirkətinin icraçı direktoru xanım Borina Andriye ilə görüşüb.

* * *

Ölkə başçısı İlham Əliyev Parisdə "SUEZ" qrupunun baş icraçı direktoru Jan Lui Şassod ilə görüşüb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Parisdə "Airbus" şirkətinin Avrasiya üzrə vitse-prezidenti Silver Delonay ilə görüşüb.

* * *

Fransa Respublikasının Prezidenti Emmanuel Makronun dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Fransaya səfəri başlayıb.

* * *

Heydər Əliyev Mərkəzində Azərbaycan xalqının böyük oğlu, sərkərdəsi və şairi Şah İsmayıl Xətaiyə həsr edilmiş "Əbədiyyət xəzinəsi" adlı sərginin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, İtaliya Respublikasının Prezidenti Sercio Mattarella və qızı Laura Mattarella sərgi ilə tanış olublar.

* * *

Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan-İtaliya biznes forumu keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan İtaliya Respublikasının Prezidenti Sercio Mattarella biznes forumda iştirak ediblər.

## İlham ƏLİYEV: "Mən həmişə çalışmışam və çalışıram ki, jurnalistlərə öz dəstəyimi göstərim".



# Sosial-iqtisadi inkişaf dövlət siyasətinin uğurlarıdır

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin alternativsizliyi dünyanın tanınmış siyasətçilərinin, politoloqlarının, nüfuzlu araşdırma mərkəzlərinin açıqlamalarında xüsusi qeyd edilir, ən yüksək mükafatlara layiq görülür. Azərbaycan bu gün bütün sahələrdə böyük uğurlara imza atır. Ölkəmizin beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirməsi, beynəlxalq qurumların hesabatlarında islahatçı ölkə kimi yer tutması, dünyanın nüfuzlu təşkilatlarının Azərbaycanın mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etməsi bir həqiqəti ortaya qoyur ki, seçdiyimiz yol düzgündür və bu yol bizi daha uğurlu gələcəyə aparır.

Ölkə başçısı İlham Əliyevin yorulmaz fəaliyyəti və rəhbərliyi ilə iqtisadiyyatın diversifikasiyası sürətləndirilir, regionların sosial-iqtisadi inkişafı təmin edilir, qeyri-neft ixracının artırılması üzrə kompleks tədbirlər görülür. Ölkədə biznes və investisiya mühitinin yaxşılaşdırılması, dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, qeyri-neft sektorunun stimullaşdırılması, o cümlədən özəl sektora təşviq mexanizmlərinin tətbiqi, aqrar sektora dövlət qayğısının artırılması, kiçik və orta sahibkarlığın dəstəklənməsi diqqət mərkəzində saxlanılır.

Həyata keçirilən davamlı islahatlar nəticəsində yaradılan güclü iqtisadi potensial iqtisadiyyatın dayanıqlığını artırır və ölkədə makroiqtisadi sabitlik təmin olunur.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təsdiq etdiyi iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində, konsepsiyalarda və digər dövlət proqramlarında müəyyən edilmiş tədbirlərin icrası uğurla davam etdirilir.

Ölkədə daha da güclənən iqtisadi artımın dayanıqlılığı, qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirilən islahatlar, neft ixrac edən ölkələrlə əldə edilən razılaşmalar nəticəsində neft qiymətlərinin tədricən yüksəlməsi ölkə iqtisadiyyatına müsbət təsir göstərir.

Dövlət başçısı tərəfindən qarşıya qoyulan vəzifələrin uğurlu icrası sayəsində bütün bölgələrin siması tamamilə dəyişir, kənd yollarında asfaltlaşdırma işləri davam etdirilir, ən ucqar kəndlər belə qazlaşdırılır, yaşayış məntəqələri içməli su ilə təmin olunur, rabitə sistemi yüksək səviyyədə qurulur. Demək olar ki, şəhərlə kənd arasındakı fərq aradan qaldırılır. Regionlarda yeni iş yerlərinin açılması, daha çox valyuta gətirən strateji əhəmiyyətli kənd təsərrüfatı məhsullarının istehsalı əhalinin rifahını daha da artırır.

Dünya birliyində layiqli yer tutan Azərbaycan bu gün dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan ölkə kimi tanınır. Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilmək hədəfinə doğru böyük inamla irəliləyir və hər ötən ildə qazanılan nailiyyətlər tarixin səhifələrinə yazılır.

**Varis YAQUBOV,**
**"Qəbələ"**